# Robert Qrin

# USTALIQ

İngilis dilindən tərcümə edən:
Firidun Ağazadə

qanun nəşriyyatı

**Robert Greene**

# M
# A
# S
# T
# E
# R
# Y

Bu, psixologiya, cəmiyyətdə və siyasətdə hakimiyyətin funksiyaları, həmçinin strateji düşüncənin xüsusiyyətləri mövzusunda yazılan mükəmməl kitabdır. Kitabda Çarlz Darvin, Volfqanq Motsart, Henri Ford, Albert Eynşteyn, Pol Qrem və Freddi Rouç kimi görkəmli şəxsiyyətlərin, çağdaş ustaların davranışları fonunda insan xarakterinin necə formalaşması izah olunur.

Gücün ən üstün nöqtəsi Ustalıqdır. İnsan həyatda, cəmiyyətdə necə güc sahibi ola bilir, labüd olanı necə bilmək olar, dahilər öz səhvlərindən necə nəticə çıxarıb düzgün qərar qəbul edir, başqalarının səhvlərindən öyrənərək onları necə öz uğuruna çevirir – Robert Qrinin usta qələmi tarixin ən qüdrətli insanlarının güc sahibi olmaq üçün keçdiyi yolların sirlərini bizimlə paylaşır, hər birimizdə bu potensialın mövcudluğuna inam yaradır.

**Robert Greene MASTERY**
**Robert Qrin USTALIQ**
Bakı, Qanun Nəşriyyatı, 2022, 464 səh.

Janr: non-fiction/özünüinkişaf
Yaş qrupu: 16+
Ölçü: 145x215 mm
Cild: yumşaq

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Firidun Ağazadə |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Korrektorlar: | Həbibə Abdulla |
| | Şəhla Yarıbəyli |
| Mətn dizaynı: | Aytac Abdul |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-062-0

© Qanun Nəşriyyatı, 2022
© 2012 by Robert Greene

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*Annaya ithaf edirəm.*

# GİRİŞ

## Yüksək güc

***Hər kəsin uğuru onun öz əlindədir, necə ki heykəltəraş əlindəki xam materialdan istədiyi obrazı yaradır. Amma bu da yaradıcı fəaliyyət qanunlarına tabedir: anadan olanda bizə yalnız istedad verilir, incəsənət isə onu səylə öyrənməyi və bu yöndə çalışmağı tələb edir.***

***İohann Volfqanq Höte***

İnsan potensialının inkişafında yüksək nöqtə olan güc və ağılın xüsusi bir forması var. Bu, insanlıq tarixində böyük nailiyyətlər və kəşflər mənbəyidir. Onu məktəbdə öyrətmirlər, o heç bir təhlilə gəlmir, amma, demək olar ki, hər birimiz bu və ya digər dərəcədə bu halı hiss etmişik, odur ki, hamımız onu təsəvvür edirik, onun ani parıltılarını təcrübəmizdən bilirik. Bəzən bu hansısa gərgin vəziyyətimizdə baş verir – nəyisə vaxtında çatdırmaq istəyəndə, mürəkkəb bir məsələni həll edəndə, böhranlı anlarda. Bəzən o, bir şey üstündə yorulmadan, həvəslə işləyəndə özünü göstərir. Hər necə olsa da, belə anlarda biz toparlanır, yüksək enerji hiss edirik. Fikrimiz, düşüncəmiz qarşımızdakı məsələnin həllinə yönəlir. Fikrin-hissin bir yerdə belə yüksək dərəcədə cəmlənməsi hər cür ideyalara rəvac verir – belə ideyalar yuxuda beynimizə gəlir, bəzən heç yerdən doğulur, altşüurumuzun qığılcımları kimi parlayıb üzə çıxır. Elə bil ətraf adamlar da bizim təsirimiz altına düşür. Ola bilsin, biz onlara qarşı daha diqqətli oluruq, ola da bilər, onlar bizdə hansısa qeyri-adi güc hiss edir və bu

onlarda bizə qarşı ehtiram hissi doğurur. Biz ətrafda baş verənlərə həmişə ləng, süst reaksiya verib həyatımız boyu passiv bir tərzdə yaşaya bilərik, amma dediyimiz anlarda bizə elə gəlir ki, baş verənlərə özümüz təsir edə, onların istiqamətini müəyyən edə bilərik.

Həmin gücü təsvir etməyə çalışaq: biz vaxtımızın çoxunu gizli arzular, istəklər və gündəlik təsəvvürlər aləmində keçiririk. Müstəsna, coşqun yaradıcılıq anlarında isə inadla nəticə əldə etməyə bir tələbat doğulur və bu öz praktik təsirini göstərir. İç dünyamızdan çıxıb ətraf aləmə, insanlara, gerçəkliyə bağlanırıq. Heç yerdə qərar tutmayan fikrimizə meydan vermək əvəzinə, ağlımız bir səmtə tuşlanır və hansısa gerçəkliyin əsl mahiyyətinə varır. Belə anlarda bizə elə gəlir ki, taybatay açılmış düşüncəmizə ətraf aləmdən işıq seli axır, birdən-birə yeni nəsnələr, təzə fikirlər doğulur, bu bizi ruhlandırır, içimizdə yaradıcılıq gücü qabarır.

Elə ki üzərində çalışdığımız iş görülür, böhran həll olunur, bayaq hiss etdiyimiz güc və gərgin yaradıcılıq şövqü də zəifləyir, yox olub gedir. Biz əvvəlki sakit halımıza qayıdır, o gücün hökmünü hiss etmirik. Amma kaş bu hissi yenidən yaratmaq, ya da bir az da uzatmaq mümkün olaydı... Təəssüf, bu elə əlçatmaz, elə sirli görünür ki!..

Məsələ burasındadır ki, gücün və ağılın bu forması ya tədqiqat mövzusu kimi qəbul olunmur, ya da bu haqda elə miflər və yanlış izahlar söylənilir ki, mövzu daha da mürəkkəbləşir. Təsəvvür edirik ki, guya yaradıcılıq qüvvəsi və dahilik heç yerdən doğulur, guya ki bu, anadangəlmə qabiliyyətdir, ya da ki, şəksiz, həmin andakı əhvali-ruhiyyədən, ya da ulduzların düzülüşündən asılıdır. Bu mistik anlayışı açmaq çox faydalı olardı, bu güc hissini dəqiq izah etmək, onun köklərini tapmaq çox gərəklidir, başa düşəsən ki, onu doğuran nədir, bu halı necə yenidən yaratmaq və ya uzatmaq olar.

Gəlin bunu *Ustalıq* adlandıraq – gerçəkliyin, ətraf aləmin, elə özümüzün də hökmündə olduğu o güc hissini. Biz bu halı az-az yaşayırıq, amma insanlar var ki – öz işinin ustası olanlar – bu hal onlar üçün həyat tərzi, dünyanı dərk etmək vasitəsidir (belə Ustalar çox-

dur: Leonardo da Vinçi, Napoleon Bonapart, Çarlz Darvin, Tomas Edison, Marta Qrehem və bir çox başqaları). Bu gücün kökündə həmin Ustalığa aparan sadə bir proses durur – buna isə hər kəsin əli çatar.

Bu prosesi belə təsvir etmək olar: Tutalım, biz piano çalmağı öyrənmək istəyirik, ya da təzə bir işə girmişik, bu zaman müəyyən vərdişlərə yiyələnməliyik. Əvvəlcə biz məqsədimizdən uzağıq. Piano çalmaq, ya da bu və ya başqa peşə haqqında ilkin təsəvvürümüz çox vaxt yanlış bilgiyə əsaslanır və çox vaxt da qorxu yaradır. Pianoya yaxınlaşanda onun dilləri adamı qorxuda bilər, biz bilmirik ki, bu dillər, simlər, pedal və digər elementlər bir-biri ilə necə bağlıdır, bütün bunların musiqiyə nə dəxli var. Ya da təzə iş yerində adamlar arasında qarşılıqlı münasibətlər, rəisin xasiyyəti, məhz burada işləyə bilmək üçün hansı qaydaların olması haqqında heç nə bilmirik. Çaşıb qalırıq. Hər iki halda konkret biliyimiz yoxdur. Hətta bu zaman da işə həvəslə yanaşırıq, özümüzü inandırırıq ki, hər şeyi öyrənə bilərik, amma tezliklə aydın olur ki, bizi ağır bir iş gözləyir. Bax burada ciddi təhlükə var – səbirsizlik, karıxıb qalmaq və qorxu hissi bizi bürüyür, az qala hər şeyi atıb getmək istəyirik. Müşahidə edib öyrənmək? Yox, o da bizlik deyil. Proses beləcə sona çatır.

Amma əgər özünüzü ələ alıb emosiyalarınıza üstün gəlsəniz, səbirlə, addım-addım irəli getməyə çalışsanız, elə bil möcüzə baş verir. Biz başqalarını müşahidə edir, onlardan nümunə götürürük, tədricən başa düşür, qanunauyğunluqların necə işlədiyini dərk edirik. Nümunə əsasında işləyib təcrübə qazanırıq, işimiz asanlaşır, yeni və daha ruhlandırıcı çağırışlara cavab vermək üçün bizi irəli aparacaq biliklərə yiyələnirik. Əvvəllər görmədiyimiz qarşılıqlı əlaqələri indi görməyə başlayırıq. Yavaş-yavaş özümüzə inamımız artır, başa düşürük ki, işimizi yerinə yetirə bilərik, səbir və inadla kəm-kəsiri aradan qaldırmaq olar.

Bir müddətdən sonra biz başqa bir mərhələyə keçirik – öyrənməkdən peşəkarlığa. Öz ideyalarımız yaranır, biz onları praktikada

yoxlayırıq, təcrübəmiz artır. Get-gedə artan biliyimizi tətbiq etmək üçün daha çox yaradıcı yollar tapırıq. Nəinki başqalarından öyrənirik, indi özümüzü təsdiq edən fərqli və münasib üslubda işləyirik.

İllər keçir, biz həmin istiqamətdə inadla davam ediriksə, Ustalığa doğru daha bir sıçrayış baş verir. Pianonun dilləri daha bizi qorxutmur, əcaib bir şey deyil. Biz onunla o qədər yaxınlaşırıq ki, o bizim əsəb sistemimizin bir hissəsinə çevrilir, o, barmaqlarımızın davamıdır. Karyeramızın bu mərhələsində intuitiv olaraq hiss edirik ki, kollektivdə mühit necədir, biznesimiz necə inkişaf edir. Müxtəlif situasiyalarda bu bizə insanları dərindən başa düşməyə, onların reaksiyasını qabaqcadan bilməyə kömək edir. Biz lazımi anda dərhal və yaradıcı qərar qəbul edə bilirik. İdeyalarımız var. Qanun və qaydaları elə yaxşı öyrənmişik ki, indi onları poza, ya da dəyişə bilərik.

Gücün bu yüksək formasına aparan prosesdə üç əsas mərhələni, ya da səviyyəni fərqləndirmək olar: birincisi, öyrənmə-təlim; ikincisi, yaradıcılıq aktivliyi; üçüncüsü, ustalıq. Birinci mərhələdə biz həmin fəaliyyət sahəsindən, demək olar ki, kənarda oluruq, imkan olduqca əsas qayda və elementləri mənimsəyirik. Bu sahənin yalnız bir hissəsini görə bilirik, odur ki, imkanlarımız da məhduddur. İkinci mərhələdə müntəzəm çalışmaq və işə dərindən nüfuz etmək sayəsində müvafiq alqoritmləri, hərəkət prinsiplərini və şeylər arasındakı əlaqələri dərk etməyə başlayırıq, beləliklə, mövzunu daha dərindən başa düşməyə yaxınlaşırıq. Bu yeni imkanların açılması eksperimentlər aparmaq və əsas elementlərlə yaradıcı şəkildə davranmaq bacarığı deməkdir. Üçüncü mərhələdə bilik, təcrübə və diqqətimizin səviyyəsi o qədər yüksəlir ki, bütün mənzərəni bütövlükdə aydın görmək imkanı yaranır. Biz həyatın məğzinə yetirik – insan təbiətinin və təbii fenomenlərin mahiyyətinə enirik. Bax buna görə əsl ustaların əsərləri qəlbimizə təsir edir, belə ustalar gerçəkliyin əsl mahiyyətini tuta bilirlər. Bunun sayəsində görkəmli alimlər fizikanın yeni qanunlarını kəşf edir, ixtiraçı və ya sahibkar hər hansı bir məsələnin əvvəllər heç kimin ağlına gəlməyən həllini tapır.

Bu gücü intuisiya adlandıra bilərik. Amma nədir intuisiya? Gerçək olanın qəfildən və anidən dərk edilməsi. Bunun üçün nə söz, nə formullar lazımdır. Sözlər də, formullar da sonradan yarana bilər, intuitiv partlayış bizi gerçəkliyin yanına gətirir, beynimiz əvvəllər bizə və başqalarına qaranlıq qalmış həqiqət qığılcımları ilə işıqlanır.

Heyvanlarda təlim və öyrəşmə qabiliyyəti var, amma bu daha çox onların ətraf aləmə olan instinktlərinə bağlıdır və özünü təhlükədən qorumaq üçündür. Onlar instinktlə səmti müəyyən edir, naməlum şəraitdə cəld və qətiyyətlə hərəkət edir. İnsan isə, əksinə, düşüncə və ağlına güvənərək şəraiti qiymətləndirir, amma bu mexanizm ləngdir və bu ləngl ik faydalı olmaya da bilər. Bu ləng, daxili çək-çevir nəticəsində bizi irəli aparmaq əvəzinə, düşüncələrimiz çox vaxt da bizimlə ətraf aləm arasında hasar yaradır.

Ustalığın yüksək nöqtəsində intuisiya o deməkdir ki, iradi, ya qeyri-iradi, insani ya heyvani – instinkt və ağıl qovuşur. Bu, ani və güclü şəkildə ətraf aləmə bağlanmağa, baş verənlərin mexanizmini dərk etməyə imkan verir. Uşaqlıqda hamımız bu intuitiv və spontan əhvalı yaşamışıq, amma vaxt keçdikcə beynimizə dolan informasiya o “gücləri” zəiflədir. Ustalar bu əhvalı yenidən yaşaya bilirlər, təsadüfi deyil ki, onların yaradıcılıq nümunələri uşaq səmimiyyəti ilə seçilir – ürəkdən gəlmədir, qeyri-iradi, amma daha yüksək səviyyədə üzə çıxır.

Bu proseslə irəliləyib dediyimiz səviyyəyə çatanda hər bir insanın beynində olan intuisiya gücü “işə düşür”, mürəkkəb işlərimizi həll edərkən bütün qüvvəmizi səfərbər edərək, biz hərdən məhz həmin əhvalı yaşayırıq. Əslində, həyatımız boyu biz bu gücün qığılcımlarını tez-tez görürük: məsələn, hansısa vəziyyətin nəticəsini aydın görəndə, ya da problemin həlli yolu qəfildən ağlımıza gələndə. Amma belə anlar tez keçir, bunu yenidən təkrar etdirməyə gücümüz, təcrübəmiz çatmır. Ustalıq səviyyəsinə çatanda isə inadlı səy və axtarışlarımızın nəticəsi olaraq intuisiya bizə tabe olan gücə çevrilir. Dünya yaradıcılıq və gerçəkliyin yeni aspektlərini görmək qabiliy-

yətini qiymətləndirdiyi üçün intuisiya bizə həm də böyük praktik fayda gətirir.

Ustalığa başqa bir yöndən nəzər salaq. Tarix boyu insanlar özlərini düşüncə məhdudluğundan asılı hiss edib, buna görə də şeylərin mahiyyətinə vara, ətraf aləmə təsir edə bilməməkdən şikayətləniblər. Həmin gücü qazanmaq üçün onlar düşüncə və hiss qanadlarını daha geniş açmaq yollarını axtarıb, buna magik ayinlər, trans, dua və lənətlər, yaxud narkotiklər vasitəsilə çatmaq istəyiblər. Bütün ömürlərini əlkimya və fəlsəfə daşının axtarışına həsr ediblər – hər cür substansiyanı qızıla çevirən maddənin (cövhər) axtarışına.

Magik vasitələrə olan bu meyil bizim günlərə qədər gəlib çatıb – biz uğurun sadə formulunu axtarır, qədim sirlərin mənasını açmağa cəhd edirik ki, bəlkə, bu yolla lazımi enerjini (həmin gücü) özümüzə cəlb edə bilək. Bütün bu cəhdlərdə bir həqiqət toxumu və praktik fayda da var: məsələn, əgər magiyada dərin konsentrasiyaya istinad etsən. Amma, ümumən, belə cəhdlər nəticəsizdir, çünki mövcud olmayan şeyi axtarmaqdır – xüsusi səy göstərmədən praktik güc əldə etmək, həm də tez və asan yolla xəyalı Eldorado[1] qurmaqdır.

Ömrünü belə sonsuz fantaziyalara sərf edən çox adamlar var, amma onlar hər birimizə müyəssər olan gerçək bir gücü görə bilmirlər. Özü də guya uğura aparan həmin magik və sadə formullardan fərqli olaraq, biz bu gücün təzahürünü – maddi nəticələrini görürük – böyük kəşf və ixtiralar, möhtəşəm tikintilər və adamı həyəcana gətirən sənət əsərləri, hamımızın faydalandığı texnoloji proseslər, əsl Ustaların digər böyük nailiyyətləri buna sübutdur. Bu güc ona yiyələnən insanlar üçün gerçəkliklə elə sıx əlaqələr yaratmağa, dünyanı dəyişməyə elə imkanlar yaradır ki, keçmişin cadugər və sehrbazları bunu yalnız arzulaya bilərdi.

İnsanlar yüz illər boyu belə Ustalığın ətrafında hündür hasarlar hörüblər. Ona dahilik təzahürü deyib, adi adamlar üçün əlçatmaz ol-

[1] Eldorado – mifik sərvətlər ölkəsi (tərc. qeydi).